**“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 299-VIQD nömrəli Qanununun tətbiqi və “İcra məmurları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 24 may tarixli 1344 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 noyabr 2021-ci il
№ 354

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi**

# Q A Y D A S I

## 1. Ümumi müddəa

1.1. Bu Qayda "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan və barəsində məcburi müalicə təyin edilmiş şəxslərin (bundan sonra – məcburi müalicə təyin edilmiş şəxs) ixtisaslaşdırılmış tibb müəssisəsində (bundan sonra – İTM) məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi qaydasını tənzimləyir.

**2. Məcburi müalicə təyin edilmiş şəxs barədə məhkəmə qərarının icraata qəbul edilməsi, icrası və onun tələblərinin yerinə yetirilməsinə nəzarətin təşkili qaydaları**

2.1. Məcburi müalicənin təyin olunması haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qərarının (bundan sonra – məhkəmə qərarı) surəti icra olunması üçün İTM-ə, habelə məcburi müalicə təyin edilmiş şəxsin yaşayış yeri üzrə yerli probasiya qurumuna (bundan sonra – yerli probasiya qurumu) göndərilir.

2.2. Məcburi müalicə təyin edilmiş şəxs inzibati həbs müddətinin başa çatdığı gün inzibati həbs yerinin nümayəndəsinin müşayiəti ilə məcburi müalicənin həyata keçirildiyi İTM-ə təhvil verilir və bu barədə polis orqanı tərəfindən yerli probasiya qurumu məlumatlandırılır.

2.3. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərə münasibətdə müvafiq məhkəmə qərarı, inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində məcburi müalicə təyin edilmiş şəxslərə münasibətdə isə məcburi müalicə təyin edilmiş şəxsin İTM-ə yerləşdirilməsi ilə bağlı polis orqanının məlumatı yerli probasiya qurumuna daxil olduqdan dərhal sonra bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq yerli probasiya qurumuna göndərilən məhkəmə qərarının tələblərinin yerinə yetirilməsi üzrə nəzarətin həyata keçirilməsi üçün həmin məhkəmə qərarı təxirəsalınmadan yerli probasiya qurumunda icraata qəbul edilir, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (Naxçıvan Muxtar Respublikasının ərazisində - Muxtar Respublikanın Ədliyyə Nazirliyinin) möhürü ilə

təsdiqlənmiş “Məcburi müalicə təyin edilmiş şəxsin qeydiyyatı kitabı”nda (1 nömrəli əlavə), həmçinin elektron qaydada şəxsin qeydiyyatı aparılır.

2.4. Nəzarəti həyata keçirən icra məmuru məhkəmə qərarı yerli probasiya qurumunda icraata qəbul edildiyi vaxtdan 3 gün müddətində məcburi müalicə təyin edilmiş şəxs barəsində nəzarət işi açır (2 nömrəli əlavə). Nəzarət işində olan bütün sənədlər ardıcıllıqla tikilir və nömrələnir. Nəzarət işində olan bütün sənədlərin siyahısı həmin işə əlavə edilir.

2.5. Nəzarət işinin nömrəsi bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş qeydiyyat kitabındakı sıra nömrəsi ilə eyni olmalıdır.

2.6. İcra məmuru məcburi müalicə təyin edilmiş şəxs barəsində nəzarət işi açıldıqdan sonra 3 gün müddətində bununla bağlı qərar çıxarmış məhkəməyə məlumat verir.

2.7. Nəzarət işinin aparılması zamanı məcburi müalicə təyin edilmiş şəxs haqqında məlumatların, o cümlədən fərdi məlumatların konfidensiallığı təmin olunmalıdır.

2.8. Məcburi müalicə təyin edilmiş şəxs İTM-ə qəbul edildikdən sonra icra məmuru təxirəsalınmadan müəssisədə həmin şəxslə ilkin söhbət aparır, barəsində olan məhkəmə qərarının tələblərini nəzərinə çatdırır, ona məsuliyyətini, vəzifə və hüquqlarını izah edir və bu barədə akt tərtib edir (3 nömrəli əlavə).

2.9. İTM həmin müəssisədə tətbiq edilən buraxılış rejimi nəzərə alınmaqla icraatında nəzarət işi olan icra məmurunun müalicə keçən şəxslə görüşməsi məqsədilə müəssisəyə buraxılmasını təmin edir.

## 3. Məcburi müalicə təyin edilmiş şəxs üzərində nəzarəti həyata keçirən icra məmurunun funksiyaları

3.1. Məcburi müalicə təyin edilmiş şəxs üzərində nəzarəti həyata keçirən icra məmuru aşağıdakı səlahiyyətləri həyata keçirir:

3.1.1. azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilmiş şəxsin polis əməkdaşları tərəfindən müəssisəyə təhvil verilməsində iştirak etmək;

3.1.2. məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə nəzarət etmək məqsədilə 3 ayda bir dəfədən az olmayaraq İTM-ə baş çəkmək, həmin şəxslə, İTM-in rəhbərliyi və müalicə həkimi ilə görüşüb söhbətlər aparmaq və bu barədə protokol tərtib etmək, habelə ayda bir dəfədən az olmayaraq İTM-in rəhbərliyi və ya müalicə həkimi ilə əlaqə saxlayaraq məhkəmə qərarının icrası və məcburi müalicə təyin edilmiş şəxsin vəziyyəti barədə məlumat almaq və bu barədə protokol tərtib etmək;

3.1.3. məcburi müalicə təyin edilmiş şəxsin məcburi müalicə ilə bağlı ərizə və şikayətlərini qəbul etmək, həmin müraciətlər üzrə müvafiq tədbirlər görmək;

3.1.4. məcburi müalicə təyin edilmiş şəxs barəsində məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə nəzarət etmək, bu məqsədlə İTM-dən zəruri məlumatları sorğu vasitəsilə əldə etmək;

3.1.5. məcburi müalicə təyin edilmiş şəxsin İTM-ə qəbulu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş “İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicənin Şərtləri və Qaydaları”nın 2.6-cı bəndinə uyğun olaraq İTM-

dən qısamüddətli çıxmasına icazə verilməsi, habelə şəxsin müalicədən boyun qaçırması, müəssisədən qaçması və ya digər hüquq pozuntusuna yol verməsi halları barədə dərhal məlumat almaq, müəssisədən qaçmış və olduğu yer məlum olmayan həmin şəxsin axtarışı ilə bağlı bu Qaydanın 4-cü hissəsində nəzərdə tutulmuş tədbirlər görmək;

3.1.6. məcburi müalicə təyin edilmiş şəxs müalicə müddətində inzibati xəta törətdikdə inzibati xətaya baxmaq səlahiyyəti olan orqana, cinayətin əlamətlərini əks etdirən əməllər törətdikdə aidiyyəti üzrə cinayət prosesini həyata keçirən orqanlara (təhqiqat, istintaq və ya prokurorluq orqanlarına) məlumat vermək;

3.1.7. bu Qaydanın 5.1.1-5.1.3-cü yarımbəndlərində göstərilən hallarda nəzarət işi üzrə icraatı dayandırmaq və müvafiq hallar aradan qalxdıqda icraatı təzələmək;

3.1.8. məcburi müalicə ləğv edildikdə və ya məcburi müalicə təyin edilmiş şəxs məcburi müalicədən vaxtından əvvəl azad edildikdə nəzarət işinə xitam vermək və bu barədə səlahiyyətli məhkəməni məlumatlandırmaq.

3.2. Məcburi müalicə təyin edilmiş şəxs üzərində nəzarəti həyata keçirən icra məmuru məhkəmə qərarının tələblərinin pozulmasını, habelə məcburi müalicə təyin edilmiş şəxsə qarşı törədilmiş qanunsuz hərəkət və hərəkətsizliyin baş verməsini aşkar etdikdə, cinayətin əlamətlərini əks etdirən əməllər haqqında cinayət prosesini həyata keçirən orqanlara (təhqiqat, istintaq və ya prokurorluq orqanlarına), digər hüquq pozuntularına yol vermiş İTM əməkdaşları barəsində isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə məlumat verməyə və bu barədə bu Qaydanın 3.1.2-ci yarımbəndində nəzərdə tutulmuş protokolda qeyd aparmağa borcludur.

## 4. Məcburi müalicə təyin edilmiş şəxsin olduğu yeri müəyyən etmək mümkün olmadıqda icra məmurunun hərəkətləri

4.1. Məcburi müalicə təyin edilmiş məhkumun olduğu yer müəyyən edilmədikdə icra məmuru Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 15-1.4.2-ci maddəsinə uyğun olaraq 10 (on) günədək müddətə aşağıdakı ilkin axtarış tədbirlərini həyata keçirir:

4.1.1. məhkumun qohumları, tanışları və digər yaxın şəxslərlə onun yerinin müəyyən edilməsi üçün söhbətlər aparır və ya bu barədə sorğu edir;

4.1.2. məhkumun qeydiyyatda olduğu və faktiki yaşadığı ərazinin yerli icra hakimiyyəti orqanı nümayəndəsinə, polis orqanına sorğu edir;

4.1.3. məhkumun həbs yerlərində, o cümlədən inzibati həbs yerlərində saxlanılıb-saxlanılmaması barədə sorğu edir;

4.1.4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin yerli qurumlarına sorğu edir;

4.1.5. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və ya bölməsinə şəxsin həqiqi hərbi xidmətə və ya toplanış keçməyə göndərilib-göndərilməməsi barədə sorğu edir;

4.1.6. məhkumun yaşayış yeri üzrə xəstəxana və digər müalicə müəssisələrinə sorğu edir;

4.1.7. məhkumun olduğu yerin müəyyən edilməsi məqsədilə əhəmiyyət kəsb edə biləcək digər tədbirləri görür.

4.2. Məcburi müalicə təyin edilmiş məhkumun olduğu yer 10 (on) gündən artıq müddətə müəyyən edilmədikdə, icra məmuru onun barəsində Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 15-1.4.3-cü maddəsinə uyğun olaraq axtarış elan edilməsi haqqında qərar qəbul edir (4 nömrəli əlavə), həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada müvafiq ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorluğa vəsatət verir. Həmin vəsatət və prokurorun təqdimatı əsasında məhkumun tutulması barədə məhkəmənin qəbul etdiyi qərar, axtarış elan edilməsi haqqında qərarla və məhkumun şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə məhkumun tutulması üçün aidiyyəti polis orqanına göndərilir.

4.3. İnzibati həbs tətbiq edilməklə yanaşı barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxs İTM-dən qaçdıqda və olduğu yer müəyyən edilmədikdə, icra məmuru bu Qaydanın 4.1.1-4.1.7-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirləri həyata keçirir.

## 5. Məcburi müalicə təyin edilmiş şəxs üzərində nəzarətin dayandırılması və onun qeydiyyatdan çıxarılması

5.1. İcra məmuru aşağıdakı hallarda müalicə təyin edilmiş şəxs üzərində nəzarət işi üzrə icraat icra məmurunun yerli probasiya qurumunun rəhbəri tərəfindən təsdiq edilən qərarı ilə dayandırır (5 nömrəli əlavə):

5.1.1. məcburi müalicə təyin edilmiş şəxs barəsində həbs qətimkan tədbiri seçildikdə;

5.1.2. məcburi müalicə təyin edilmiş şəxsin olduğu yer müəyyən edilmədikdə - şəxsin axtarışı haqqında məhkəmənin qərarı olduqda;

5.1.3. məcburi müalicə təyin edilmiş şəxs ölkə hüdudlarından kənarda olduqda.

5.2. Bu Qaydanın 5.1.1-5.1.3-cü yarımbəndlərində göstərilən hallar aradan qalxdıqda nəzarət işi üzrə icraat icra məmurunun yerli probasiya qurumunun rəhbəri tərəfindən təsdiq edilən qərarı ilə təzələnir.

5.3. Məcburi müalicə təyin edilmiş şəxs azadlıqdan məhrum etmə cəzasına məhkum edildikdə nəzarət işi məcburi müalicənin davam etdirilməsi məqsədilə məhkumun cəza çəkdiyi cəzaçəkmə müəssisəsinə göndərilir.

5.4. İcra məmuru aşağıdakı hallarda məcburi müalicə təyin edilmiş şəxsi qeydiyyatdan çıxararaq nəzarət işi üzrə icraata xitam verilməsi barədə yerli probasiya qurumunun rəhbəri tərəfindən təsdiq edilən qərar qəbul edir və bu barədə qərarı qəbul etmiş məhkəməyə məlumat verir:

5.4.1. məcburi müalicənin ləğv edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

5.4.2. məcburi müalicə təyin edilmiş şəxs İTM-də qalmasına maneçilik törədən ağır xəstəliyə düçar olduqda və ya müalicənin başlanması vaxtından azı 6 ay keçdikdən sonra müalicənin davam etdirilməsinə olan zərurət aradan qalxdıqda onun məcburi müalicədən vaxtından əvvəl azad edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

5.4.3. məcburi müalicə təyin edilmiş şəxs öldükdə, ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə.

5.5. Məcburi müalicə təyin edilmiş şəxs qeydiyyatdan, bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş qeydiyyat kitabında zəruri qeydlər aparılmaqla çıxarılır və bu barədə qərar çıxarmış məhkəməyə məlumat verilir.

“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası”na **1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

______________________________________________________________

(probasiya qurumunun adı)

**Məcburi müalicə təyin edilmiş şəxsin qeydiyyatı kitabı**

(cəzalar və inzibati həbslər üzrə iki bölməyə ayrılmalı)

Başlandı: “_____” _______________ 20___ il

Qurtardı: “_____” _______________ 20___ il

| |
|---|
| s/n |
| (məcburi müalicə təyin edilmiş şəxsin soyadı, adı, atasının adı, təvəllüdü və fərdi identifikasiya nömrəsi) |
| (yaşayış və iş (təhsil) yeri) |
| (hansı məhkəmə tərəfindən, nə vaxt, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (İnzibati Xətalar Məcəlləsinin) hansı maddəsi ilə, hansı cəza (inzibati tənbeh) tətbiq edilmişdir) |
| (məhkəmə qərarının qanuni qüvvəyə mindiyi tarix) |
| (məhkəmə qərarının icra məmuru tərəfindən icraata qəbul edildiyi tarix) |
| (məhkəmə qərarının tələbi) |
| (məcburi müalicə müddətinin başa çatmalı olduğu tarix) |
| |

| |
|---|
| (məcburi müalicənin aparılmalı olduğu ixtisaslaşdırılmış tibb müəssisəsinin adı) |
| (məcburi müalicə təyin edilmiş şəxsin olduğu yerin müəyyən edilməsi istiqamətində görülən ilkin tədbirlərə dair qeyd (əgər varsa) |
| **Digər zəruri qeydlər** |
| (məcburi müalicə təyin edilmiş şəxsin qeydiyyatdan çıxarılmasının tarixi və əsası) |
| |
| |
| |

“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası”na **2 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

__________________________________________________________________________

(probasiya qurumunun adı)

**Məcburi müalicə təyin edilmiş şəxs barədə**
**Nəzarət işi**

**№ _______**

__________________________________________________________________________

(məcburi müalicə təyin edilmiş şəxsin soyadı, adı, atasının adı, təvəllüdü və fərdi identifikasiya nömrəsi)

______________________________________________ “___” _______________ 20___ il tarixli

(məhkəmənin adı)

hökmünə (qərarına) əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (İnzibati Xətalar Məcəlləsinin)______ maddəsi ilə təqsirli bilinərək _______________növündə cəza (inzibati tənbeh) təyin edilməklə yanaşı, barəsində________ müddətə tibbi xarakterli məcburi tədbirlər (məcburi müalicə) təyin edilmişdir.

İcra məmuru _________________________________________________

(soyadı, adı və atasının adı)

Qeydiyyata götürülmüşdür “____” ___________ 20___ il

Qeydiyyatdan çıxarılmışdır “____” ___________ 20___ il

Əsas _______________________________________________________

İşdə olan vərəqlərin sayı _______________________________________

(sözlə yazmaq)

“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə

məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"na **3 nömrəli əlavə**

**Məcburi müalicə təyin edilmiş şəxslə ilkin söhbətin aparılması barədə**

**A K T**

_________________________________________ "____" _________________ 20___ il tarixli

(məhkəmənin adı)

hökmünə (qərarına) əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin) __________ maddəsi ilə təqsirli bilinərək ______________ növündə cəza (inzibati tənbeh) təyin edilməklə yanaşı, barəsində ______________ müddətə tibbi xarakterli məcburi tədbirlər (məcburi müalicə) təyin olunmuş _____________________________________________________________ ilə söhbət aparıldı,

(müalicə təyin edilmiş şəxsin soyadı, adı və atasının adı)

ona məcburi müalicə təyin edilməsi barədə məhkəməqərarınıntələbləri, məsuliyyəti, hüquq və vəzifələri izah edildi.

____________________________________________________________

(probasiya qurumunun adı)

____________________________________________________________

(icra məmurunun soyadı, adı, atasının adı)

______________________________

(imza)

Məcburi müalicə ilə əlaqədar hüquq və vəzifələrim mənə izah edildi.

____________________________________________________________

(məcburi müalicə təyin edilmiş şəxsin soyadı, adı və atasının adı)

______________________________

(imza)

“____” _____________ 20____ il

“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə

məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"na **4 nömrəli əlavə**

**"TƏSDİQ EDİRƏM"**

____________________________________ rayon (şəhər)
Probasiya qurumunun rəhbəri

__________________________________________________
(rütbəsi)

__________________________________________________
(soyadı və adı)

"____" _________________ 20____ il

**Q Ə R A R**

(Məcburi müalicə təyin edilmiş şəxs barədə axtarış elan edilməsi barədə)

______________________________________ "_____"____________ 20___ il

(şəhər, rayon)

Mən, ____________________ rayon (şəhər) Probasiya qurumunun icra məmuru ____________________________ icraatımda olan __________ nömrəli nəzarət işi üzrə məcburi müalicə təyin edilmiş şəxsin _________________________________________________________

(soyadı, adı, atasının adı)

olduğu yer barədə məsələyə baxaraq,

**MÜƏYYƏN ETDİM:**

_____________________________________________________________________________________

(qərarı vermiş məhkəmənin adı, qərarın tarixi və nömrəsi)

qərarı ilə ____________________________________________ məcburi müalicə təyin edilmişdir.

(soyadı, adı, atasının adı, təvəllüdü)

Həmin şəxsin məcburi müalicəyə cəlb edilməsi üçün tədbirlər görülərkən onun olduğu yeri müəyyən etmək mümkün olmamışdır.

Belə ki, ____________________________________________________________________________

(şəxsin olduğu yerin müəyyən edilməsi ilə bağlı icra məmuru tərəfindən görülmüş tədbirlər tam əks olunmalı),

_____________________________________________________________________________________

___________________________________________________________________________

lakin həmin tədbirlər müsbət nəticə verməmişdir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 15-1.4.3-cü maddəsini rəhbər tutaraq,

**QƏRARA ALDIM:**

"___" ____________ ____ ildə __________________ anadan olmuş __________________ vətəndaşı

(ölkə)

__________________________ ünvanda qeydiyyatda olan şəxs ________________________________

(ünvan) (şəxsin soyadı, adı və atasının adı)

__________________________________ barəsində axtarış elan edilsin,

_____________________________________ _________________________________ ________________

(icra məmurunun vəzifəsi, xüsusi rütbəsi) (soyadı, adı) (imza)

M.Y.

“Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası”na **5 nömrəli əlavə**

**“TƏSDİQ EDİRƏM”**

______________________________rayon (şəhər)
Probasiya qurumunun rəhbəri

___________________________________________
(rütbəsi)

___________________________________________
(soyadı, adı)

“____” ________________ 20___ il

**QƏRAR**

(məcburi müalicə təyin edilmiş şəxs barəsində nəzarət işi üzrə icraatın dayandırılması haqqında)

"____"________________ 20__ il                                                  _________ yeri

Mən, ____________________________ rayon (şəhər) Probasiya qurumunun icra məmuru _______________________________________ icraatımda olan _____________ nömrəli nəzarət işi

(soyadı, adı və atasının adı)

üzrə icraatın dayandırılması barədə məsələyə baxaraq,

**MÜƏYYƏN ETDİM:**

_______________________________________________________________________________________

(qərarı vermiş məhkəmənin adı, qərarın tarixi və nömrəsi)

qərarı ilə _______________________________ məcburi müalicə təyin edilmişdir. İcraat zamanı

(soyadı, adı, atasının adı, təvəllüdü)

_______________________________________________________________________________________

(bu Qaydanın 5.1.1-5.1.3-cü yarımbəndlərində qeyd olunan hallardan biri göstərilməklə)

səbəbindən həmin şəxsin məcburi müalicəyə cəlb edilməsi mümkün olmamışdır (tamamlanmamışdır).

Göstərilənlərə əsasən və "İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicə barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qayda"nın 5.1-ci bəndini rəhbər tutaraq,

**QƏRARA ALDIM:**

1. Məcburi müalicə təyin edilmiş ________________________________ barəsində
(soyadı, adı, atasının adı, təvəllüdü)
nəzarət işi üzrə icraat ____________________________________________________
(qərarın əsaslandırıcı hissəsində istinad olunan səbəbi göstərməli)
aradan qalxanadək dayandırılsın.

2. Qərarın surəti məlumat üçün __________________ məhkəməsinə (qərarı vermiş məhkəməyə) və müalicə müəssisəsinə göndərilsin.

________________________________ ______________________ _____________

(icra məmurunun vəzifəsi, xüsusi rütbəsi) (soyadı, adı) (imza)

M.Y

© 2022 | E-qanun.az | Bütün Haqqlar QorunurDeveloped by: ƏdliyyƏNazirliyinin İnformasiya - kommunikasiya Texnologiyaları İdarƏsi / CROCUSOFT